Azad Azərbaycan

16 mart 2021-ci il №18 (3673)

# Yaradıcılığının ikinci məhsuldar dövrünü yaşayan sənətkar

## (Portret cizgiləri)

**Azərbaycan ədəbiyyatının, rejissurasının, jurnalistikasının tanınmış simalarından olan Ağalar İdrisoğlunun bu gün - martın 16-da doğum günüdür. Onun 71 yaşı tamam olur. Dünyanın tanınmış psixoloqları, alimləri deyirlər ki, insanın yaradıcılığının birinci məhsuldar dövrü 60-70 yaş arasında, ikinci məhsuldar dövrü - 70-80 yaş arasında, üçüncü məhsuldar dövrü - 50-60 yaş arasındadır. Deməli, Ağalar İdrisoğlu da ömrünün ikinci məhsuldar dövrünü yaşayır. O, 1950-ci ilin mart ayının 16-da Masallı rayonunun Digah kəndində anadan olub. Digah kənd 8 illik və Nəriman Nərimanov adına Masallı şəhər 2 nömrəli tam orta məktəbini bitirib.**



Uşaq yaşlarından çox keşməkeşli həyat yaşayan Ağalar İdrisoğlu xaraktercə sanqvinik olduğundan həmişə öz arzularına, məqsədlərinə çatmaq üçün mübarizə aparıb. İlk öncə məktəbdə dərslərindən yüksək qiymətlər alıb. Ədəbiyyata, tarixə, incəsənətə böyük həvəsi olduğundan bu sahələri mükəmməl mənimsəyib. Adil Səfərovun və Şakir Həsənovun yaratdıqları Masallıdakı Miniatür teatrında həvəskar aktyor kimi çıxış edib.



1975-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dram və kino aktyorluğu fakültəsini və 1986-cı ildə isə Moskvadakı A. L.Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun (indiki Beynəlxalq Teatr Akademiyası) rejissorluq fakültəsini əla qiymətlərlə bitirib.

Ağalar İdrisoğlu artıq 16 yaşından bədii yaradıcılıqla, jurnalistika ilə məşğul olur. İlk miniatürləri və məqalələri 1966-67-ci illərdən "Azərbaycan pioneri" və Masallıda çıxan "Çağırış" qəzetlərində çap olunub. 50 ildir ki, peşəkar teatr sənətində çalışır. Bu vaxta qədər aktyor kimi 40-dan artıq rollarda oyanıb və rejissor kimi 140-dan çox bir-birindən maraqlı teatr tamaşalarına və teatrlaşdırılmış kütləvi tamaşalara quruluş verib.

**O, 26 il yaratdığı Sumqayıt Gənclər Xalq Teatrının, Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının, Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili-Dram Teatrının, Azərbaycan-Dağıstan Beynəlmiləl Teatr Truppasının baş rejissoru, bədii rəhbəri, direktoru vəzifələrində işləyib. Azərbaycan Teatr Xadimləri İttifaqının katibi, idarə heyətinin üzvü və Sumqayıt Bölgə şöbəsinin sədri olub.**

Nasir, daramaturq, publisist, jurnalist kimi 20-dən artıq teatrlaşdırılmış tamaşalar üçün ssenarilərin, 150-dən çox hekayələrin, esselərin, elegiyaların, pritçaların, novellaların, 1500-dən çox publisist yazıların, məqalələrin, oçerklərin, ressenziyaların, portret yazılarının, elmi məqalələrin, müsahibələrin müəllifidir.

Ağalar İdrisoğlunun "İnan mənə", "Ən xoşbəxt gün", "Məhkəmədən əvvəl məhkəmə və ya kəfənini geymiş qoca", "Ramiz İslamoğlu sorağında və ya əkmə qəm ağacı", "Dünya azərbaycanlıları" (müştərək), "Qaranlığı yaran işıq" (Maarif Teymurla birgə), "Bir alim ömrünün salnaməsi", "Vicdan mühakiməsi", "Dözə bilmədi" (Sadıq Murtuzayevlə birgə), "Könüllərdə yaşayan sənətkar" (müştərək), "General Xudu Borçalı" (Veys Xudiyevlə birgə), "İmam Şamil" (Sadıq Murtuzayevlə birlikdə), "Mümkün olmayanı mümkün eləyən rəhbər", "Milyonları xalq üçün xərcləyib, təmənna ummayan İnsan" (Rəhman Orxanla birlikdə) kitabları çap olunub. 10-dan çox topluda hekayələri, pyesləri, tərcümə etdiyi əsərlər işıq üzü görüb. Dünya xalqlarının 10 pyesini dilimizə tərcümə edib. Onun özünün yazdığı və tərcümə etdiyi pyeslər Ağdam, Mingəçevir, Füzuli, Gəncə Dövlət Dram Teatrlarında, Sumqayıt Dövlət Musiqili-Dram Teatrında, Dövlət Gənclər Teatrında, keçmiş Sovetlər Birliyinin bir neçə Teatr-Studiyalarında tamaşaya qoyulub.

Ağalar İdrisoğlunun "İnan mənə" pyesi 1985-cı ildə Ümumittifaq gənc dramaturqlar müsabiqəsində 48 dramaturqun pyesləri arasında 3-cü dərəcəli mükafata layiq görülüb. "Şah İsmayıl" pyesi Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin 2010-cu ildə keçirdiyi müsabiqədə 34 pyesin içərisində 2-ci dərəcəli mükafata layiq görülüb (Birinci dərəcəli mükafat isə heç bir pyesə verilməyib). "İnan mənə" pyesi 1986-cı ildə Moskvada, rus dilində, "İskusstvo" nəşriyyatında, SSRİ dramaturqlarının "Məhəbbət və başqaları" adlı antalogiyası kitabında çap olunub. Onun quruluş verdiyi tamaşalardan Akif Həsənoğlunun "Yanmış evin nağılı" Osman Mirzəyev adına mükafata və özünün yazdığı "Şah İsmayıl" tarixi faciəsi "Qızıl Dərviş" mükafatına layiq görülüb. Quruluş verdiyi ondan çox tamaşası Mədəniyyət Nazirliyinin pul mükafatlarına, Fəxri fərmanlarına layiq görülüb. 1981-ci ildə Mədəniyyət Nazirliyinin "İlin ən yaxşı aktyoru" mükafatını alıb.



**Uzun illər ədəbiyyat sahəsindəki xidmətlərinə görə 2013-cü ildə ona yazıçı kimi Prezident mükafatı verilib. Elə həmin ilin iyin ayının 25-də isə ədəbiyyat və incəsənət sahəsindəki xidmətlərinə görə, Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə Ağalar İdrisoğlu (Ağalar İdris oğlu Mehdiyev) Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülüb.**

Ağalar İdrisoğlu hal-hazırda quruluşçu rejissoru olduğu Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında bir-birindən maraqlı tamaşalar hazırlayır. Onun bu teatrda quruluş verdiyi Vaqif Əlixanlının "Əcəl atı", Feruz Mustafanın "Əjdaha ili", Panço Pançevin "Dörd əkizin nağılı", Xanımana Əlibəylinin "Aycan" tamaşaları teatr mütəxəssisləri və tamaşaçılar tərəfindən çox yüksək qarşılanıb. İndi isə o, rejissor kimi Qarabağ müharibəsinə həsr olunan Xalq şairi Nəriman Həsənzadənin "Qarabağ Azərbaycandı, "Qarabağnamə"m İlhamdı" pyesi üzərində işləyir.

2019-cu ildə Mingəçevir Dövlət Dram Teatrında şair-yazıçı Qənbər Şəmşiroğlunun povesti əsasında (səhnələşdirənlər Ağalar İdrisoğlu, Nəriman Ocaqlı) "Caninin etirafı" tamaşası Mingəçevirdə və bir neçə rayonda, Gəncədə Kəlbəcər qaçqınları qarşısında böyük uğurla oynanılıb. 2020-ci ilin fevral ayının 17, 18 tarixlərində Bakıda Milli Akademik Dram Teatrının səhnəsində oynanılan vaxt bu tamaşa böyük marağa səbəb olub. Bununla bağlı çoxlu ressenziya yazılıb.

Ağalar İdrisoğlu uzun illər işlədiyi və şöbə müdiri olduğu "Azad Azərbaycan" qəzetinin səhifələrində tez-tez maraqlı hekayələri, məqalələri, esseləri, elegiyaları, ressenziyaları, portret yazıları ilə çıxış edir. O, Cənub bölgəsinin,doğulduğu Masallı rayonunun və yaşadığı Sumqayıt şəhərinin ilk peşəkar dramaturqu, Moskvada Beynəlxalq Teatr Akademiyasında ali təhsil alan ilk peşəkar teatr rejissoru və ilk Əməkdar incəsənət xadimidir.

**Biz də çoxminli oxucularımız, tamaşaçılarımız adından Respublikanın Əməkdar incəsənət xadimi, dəyərli ziyalı, uzun illər həyatını Azərbaycan dövlətinə, dövlətçiliyinə bağlayan, böyük zəhmət sərf edərək bu mövzularda çoxlu maraqlı yazı müəllifi olan, Qarabağ müharibəsinə həsr etdiyi orijinal yazılarında ermənilərin işğalçılıq siyasətini mətbuat vasitəsi ilə dünya xalqlarına çatdıran, peşəsini ürəkdən sevən, gözəl ailə başçısı Ağalar İdrisoğlunu ad günü münasibəti ilə təbrik edir, ona həyatda can sağlığı və yaradıcılığında yeni-yeni uğurlar arzu edirik! Onun bundan sonra da quruluş verəcəyi yeni tamaşalarını, bədii əsərlərini, məqalələrini, publisist yazılarını səbirsizliklə gözləyirik!**



İlhamə MƏHƏMMƏDQIZI